# Yeniləşən Azərbaycana yeni məktəb

## Bölgələrdə məktəb infrastrukturu müasirləşir

Sentyabrın 14-də Heydər Əliyev Fondu tərəfindən Göyçay, İsmayıllı və Qəbələdə yeni inşa olunan məktəblər istifadəyə verilib.

Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov, elm və təhsil naziri Emin Əmrullayev və ictimaiyyət nümayəndələri yeni istifadəyə verilən təhsil müəssisələrinin açılışında iştirak ediblər.

***

“Məktəbimiz üçün yeni binanın tikilməsinə görə çox sevinirik. Bu, bizim üçün çox böyük bayram oldu. Sinif otaqlarımız işıqlı və genişdir, məktəbdə bütün şəraitimiz var. Çalışacağıq ki, bu gözəl məktəbdə əla qiymətlərlə oxuyaq”. Yeni məktəb binasında dərsə başlayan Cəmilə Aslanlı sevincini belə ifadə edir.

Şagird yoldaşı Arzu Əliyeva da sevinc içindədir. “Bu yeni məktəb binası Bilik Günündə bizə ən gözəl hədiyyədir. Şagirdlər üçün bundan gözəl hədiyyə ola bilməz. Bu dəstək bizim üçün çox əhəmiyyətlidir”.

Övladları məktəbdə təhsil alan rayon sakini Könül Eyvazova da bu diqqət və qayğıya görə minnətdarlığını bildirir. “Ötən illərdə məktəbdə tədris zamanı çətinliklər olurdu. Müəllimlərlə birgə şagirdlər də əziyyət çəkirdi. Lakin indi çox gözəl məktəb binası tikilib. Bunun üçün ölkə rəhbərinə və Heydər Əliyev Fondunun prezidentinə təşəkkür edirik”.

Valideyn Azər Şahalıyev də sevincini gizlətmir: “Birinci vitse-prezidentimiz, Heydər Əliyev Fondunun prezidenti, bizə belə bir hədiyyə etdi. Məktəb kollektivi, eləcə də valideynlər belə gözəl məkana görə cənab Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya minnətdarıq”.

İsmayıllıda 4 nömrəli tam orta məktəbin 280 şagird yerlik yeni binası istifadəyə verilib.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa olunan məktəb binası 3 korpusdan ibarətdir. Məktəbdə fənn kabinetləri, laboratoriyalar, idman zalı və açıq idman meydançası mövcuddur. Tədris ocağı zəruri avadanlıqlarla təchiz edilib, həmçinin həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb.

Direktor Şəbnəm Osmanlı qeyd etdi ki, şagirdlərimiz respublika olimpiadalarında, Beynəlxalq idman, musiqi, rəsm yarışlarında iştirak edir və uğur qazanırlar: “Məktəbimiz 2020-2021-ci tədris ilində “Təhsildə inkişaf və innovasiyalar üzrə 4-cü qrant müsabiqəsi”ndə “Psixometrion” layihəsi çərçivəsində qalib olub. 2022/2023-cü tədris ilində məzunlarımızın ali məktəblərə qəbul göstəriciləri ürəkaçan oldu. Məzunlarımızdan 70 %-i respublikamızın ali və orta ixtisas məktəblərinə qəbul olub”. Direktor onu da qeyd etdi ki, əvvəlki məktəb binası istifadəyə yararsız vəziyyətə düşdüyündən

















Heydər Əliyev Fondu tərəfindən yeni məktəb binası inşa edilib. O, həm kollektiv, həm də valideynlər adından cənab Prezident İlham Əliyevə və birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya minnətdarlığını bildirib.

***

Qəbələnin Nic qəsəbəsində də 1 və 4 nömrəli tam orta məktəblərin yeni binaları istifadəyə verilib.

Qəbələ rayon Nic qəsəbə 1 nömrəli tam orta məktəbin müəllimlərindən - Koasari Dmitriy Oniki, Piralova Karina İliçyevna, Nasibari Mərdi Artaşi və valideynlərdən Akelova Marianna Norikovna, Bayramari Ruben Qeorqiyeviç, Dəmirçari Yanina Roberti minnətdarlıq duyğularını ifadə edərək yeni məktəb binasının istifadəyə verilməsinin sevincini yaşayırlar.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə inşa edilən 1 nömrəli tam orta məktəbin ikimərtəbəli binası 200 şagird yerlikdir. Məktəbdə fənn kabinetləri, laboratoriyalar, kitabxana, yeməkxana, akt və idman zalları, açıq idman meydançası şagird və müəllimlərin istifadəsinə verilib. Bununla yanaşı, təhsil ocağının həyətində abadlıq və yaşıllaşdırma işləri görülüb.

Nic qəsəbəsində 4 nömrəli tam orta məktəb üçün 360 şagird yerlik yeni binanın tikintisi də artıq tamamlanıb. Məktəbdə 42 sinif otağı, o cümlədən 3 laboratoriya, 1 texnologiya, 1 kompüter otağı, akt və idman zalları, kitabxana, yeməkxana mövcuddur.

***

Göyçay şəhəri M.Füzuli adına 6 nömrəli tam orta məktəbin yeni inşa olunan binası da ötən gün istifadəyə verilib.

Yenidən tikilmiş məktəb 1076 şagird yerlikdir. Məktəbdə 34 sinif otağı ilə yanaşı, hər cür avadanlıqlarla təchiz olunmuş məktəbəhazırlıq otağı, fizika, kimya, biologiya, texnologiya, informatika, çağırışaqədərki hazırlıq, linqafon kabinetləri, tibb otağı, kitabxana, akt və idman zalları, yeməkxana mövcuddur.

Məktəbdə 500 şagirdin təlim-tərbiyəsi ilə 71 müəllim məşğul olacaq.

Məktəbin direktoru Yeganə Mehdiyeva təhsil ocağının uğurlarını diqqətə çatdıraraq sevinc və minnətdarlığını ifadə edir: “2022-2023-cü tədris ilində şagirdlərimizdən 14 nəfəri ali məktəbə, 5 şagirdimiz isə orta ixtisas məktəbinə qəbul olublar. Builki IX sinif buraxılış imtahanında Əsgərli Leyla Vüqar qızı 300 baldan 281 bal toplayaraq rayon birincisi olub, Osmanlı Mahir Anar oğlu 249 bal toplayıb, hər iki şagirdimiz yüksək nəticə əldə edərək fərqlənmə attestatına layiq görülüb. Sertifikasiya imtahanında iştirak edən ibtidai sinif müəllimlərimizdən Əhmədova Sürmə Rza qızı 56 bal, Şəfiyeva Aygün Osman qızı 53 bal toplayaraq yüksək nəticə əldə ediblər. Məktəbin Azərbaycan dili və ədəbiyyat müəllimi Əliyeva Aynur Rasim qızı Təhsildə inkişaf və innovasiyalar üzrə VII qrant müsabiqəsinin qalibidir”.

***

Sentyabrın 14-ü və 15-də Qax rayonu Zakir Müslümov adına Qum kənd, Zaqatala rayonu Aydın Babayev adına Mosul kənd, Daşkəsən şəhəri A.Mürsəlov adına 2 nömrəli, Göyçay rayonu Bığır kənd N.İsmayılov adına, Saatlı rayonu Azadkənd kənd, Ağcabədi rayon Poladlı kənd, Tərtər şəhəri Şikar Şikarov adına 5 nömrəli tam orta məktəblərinin yeni inşa olunmuş binalarının və Quba rayonu Fərhad Həmzəyev adına Digah kənd, Ağdam rayonu R.Məmmədov adına Mahrızlı kənd tam orta məktəblərin yeni tədris binalarının, Gəncə şəhəri N.Gəncəvi adına 11 nömrəli tam orta məktəbin və Biləsuvar rayonu K.Ağayev adına texniki fənlər təmayüllü internattipli məktəb-liseyin əsaslı təmirdən sonra açılış mərasimləri keçirilib.

Heydər Əliyev Fondu tərəfindən inşa edilən Yevlax rayonunun Xanabad kəndində 360 şagird yerlik məktəb, Salyan rayonunun Şorsulu kəndində, Cəlilabad rayonunun Sərhədabad kəndində, Saatlı rayonu Qaracalar kəndində, Tərtər rayonunun Azadqaraqoyunlu kəndində, Sabirabad rayonu Narlıq kənd Ə.Səmədov adına tam orta məktəb, Qax şəhərindəki V.Əliyev adına 3 nömrəli tam orta məktəb, Ağstafa rayonu H.Əzizov adına Vurğun qəsəbə tam orta məktəbi, Tərtər şəhəri 5 nömrəli tam orta məktəb və əsaslı təmir olunan Lənkəran şəhəri 1 nömrəli tam orta məktəb binaları istifadəyə verilib.

Açılış mərasimlərində elm və təhsil nazirinin müavinləri Firudin Qurbanov, İdris İsayev, Həsən Həsənli, elm və təhsil nazirinin müşaviri, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Elm və Təhsil Nazirliyinin şöbə müdirləri Vəfa Yaqublu, Eşqi Bağırov, Tural Əhmədov, Səbuhi Mahmudov, nazirliyin sektor müdiri Fuad Qarayev, eləcə də rayon icra hakimiyyətlərinin başçıları, regional təhsil idarələrinin və rayonlar üzrə sektor müdirləri, Heydər Əliyev Fondunun və ictimaiyyət nümayəndələri, şəhid ailələrinin üzvləri, məktəblərin müəllim-şagird kollektivləri və valideynlər iştirak ediblər.

Tədbirlərdən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Tədbir iştirakçıları tədris ocaqlarında yaradılmış şəraitlə tanış olublar.

**Şakir CƏFƏROV**